33/34 (1340) 22 avqust - 4 sentyabr 2024-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## “AZƏRBAYCAN RUSİYA İLƏ QARŞILIQLI FƏALİYYƏTİN SƏVİYYƏSİNDƏN ÇOX MƏMNUNDUR”



“Biz ölkələrimiz arasında qarşılıqlı fəaliyyətin səviyyəsindən çox məmnunuq”.

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinlə avqustun 19-da məhdud tərkibdə keçirilən görüşdə söyləyib.

Dövlətimizin başçısı bildirib: *“Qeyd etmək istərdim ki, biz ölkələrimiz arasında qarşılıqlı fəaliyyətin səviyyəsindən çox məmnunuq. 2022-ci ilin fevralında imzaladığımız müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə uğurla yerinə yetirilir, həm siyasi, həm də iqtisadi sahədə çox müsbət dinamika, yaxşı rəqəmlər görürük. Əlbəttə, həm energetika, həm də nəqliyyat sahələrində əməkdaşlıq edirik, humanitar əlaqələrə, həmçinin bir çox digər sahələrə xüsusi diqqət yetiririk”.*

Prezident İlham Əliyev əmin olduğunu bildirib ki, Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana hazırkı dövlət səfəri ikitərəfli münasibətlər üçün faydalı olacaq.

O, deyib: *“Bu gün gündəlikdə duran məsələləri bir daha müzakirə edəcəyik. Əminəm ki, səfər həm Sizin, həm də münasibətlərimiz üçün xoş olacaq”.*

## “AZƏRBAYCAN VƏ RUSİYA MÜTTƏFİQLƏR, DOSTLAR, YAXIN TƏRƏFDAŞLAR VƏ QONŞULAR KİMİ FƏALİYYƏT GÖSTƏRİR”

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev rusiyalı həmkarı Vladimir Putinlə mətbuata bəyanatında deyib.

Dövlətimizin başçısı qeyd edib ki, Prezident Vladimir Putinin Azərbaycana dövlət səfəri xüsusi xarakter daşıyır.

O, deyib: *“Rusiya ilə əmtəə dövriyyəsinin artması əməkdaşlığın böyük potensialından xəbər verir.*

*Həm ötən il, həm də bu ilin altı ayında əmtəə dövriyyəsində artım əməkdaşlığın böyük potensialından xəbər verir. Biz keçən il 4 milyard dollar həddini keçdik və təbii ki, bunun son hədd olmadığı barədə fikir mübadiləsi apardıq”.*

## “ŞİMAL-CƏNUB” LAYİHƏSİ BAKI VƏ MOSKVANIN DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏRİNDƏ MÜSTƏSNA ƏHƏMİYYƏTƏ MALİKDİR”

Bunu Azərbaycan Prezidenti İlham Əliyev rusiyalı həmkarı Vladimir Putinlə mətbuata bəyanatında deyib.

Dövlətlərarası münasibətlərimiz üçün də müstəsna əhəmiyyətə malik olan, həmçinin regional nəqliyyat dəhlizləri, nəqliyyat yolları ilə bağlı məsələləri ətraflı müzakirə etdiklərini diqqətə çatdıran dövlətimizin başçısı bildirib: *“Deməliyəm ki, Azərbaycanın ərazisində “Şimal-Cənub” dəhlizinin həm dəmir yolu, həm də avtomobil yolu seqmentləri tam şəkildə reallaşdırılıb və uğurla fəaliyyət göstərir. Hazırkı məqamda bu dəhlizin ötürücülük qabiliyyətini yüksəltmək üçün onun dəmir yolu sahəsinin modernləşdirilməsi ilə məşğuluq. Biz ildə 15 milyon ton və daha çox yüklərin daşınması imkanlarından danışırıq”.*

## “CƏNUBİ QAFQAZDA SABİTLİK BÜTÜN DÖVLƏTLƏRİN VƏ REGİON XALQLARININ KÖKLÜ MARAQLARINA TAM CAVAB VERİR”

Bu fikri Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevlə mətbuata bəyanatında söyləyib.

Rusiyanın dövlət başçısı Azərbaycana səfərinin yekunlarından məmnunluğunu ifadə edib. O, aparılan danışıqların və əldə olunan razılaşmaların Rusiya-Azərbaycan strateji tərəfdaşlığının gələcəkdə də möhkəmlənməsinə xidmət edəcəyinə əminliyini bildirib.

## “RUSİYA GƏLƏCƏKDƏ DƏ AZƏRBAYCAN-ERMƏNİSTAN QARŞILIQLI FƏALİYYƏTİNİN NORMALLAŞDIRILMASINA KÖMƏK EDƏCƏK”

Rusiya gələcəkdə də Azərbaycan-Ermənistan qarşılıqlı fəaliyyətinin normallaşdırılmasına və 2020-2022-ci illərdə Rusiya, Azərbaycan prezidentləri və Ermənistanın baş naziri arasında əldə olunmuş məlum üçtərəfli razılaşmalar əsasında sülh sazişinin bağlanmasına hərtərəfli kömək göstərəcək.

Bu sözləri Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevlə mətbuata bəyanatında söyləyib.

*“Biz, həmçinin hələ Sovet İttifaqı vaxtından bizdə qalan müvafiq sənədləri nəzərə almaqla sərhədlərin delimitasiyası və demarkasiyasına, transsərhəd marşrutlarının açılmasına, humanitar təmasların yaradılmasına kömək etməyə hazırıq”*, - deyə o diqqətə çatdırıb.

## “BAKI REGİONUN OAZİSİNƏ ÇEVRİLİR”

Bunu Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevlə məhdud tərkibdə keçirilən görüşdə deyib.

*“Bakıda olmağıma, şəhərə bir daha tamaşa etməyimə şadam. Şəhər inkişaf edir, uğurla inkişaf edir, deyərdim ki, bir növ regionun oazisinə çevrilir”*, - deyə V.Putin qeyd edib.

O, deyib: *“Rusiya Cənubi Qafqazda vəziyyətin nizamlanmasında iştirak etməyə hazırdır. Artıq Sizinlə dünən bu məsələyə toxunmuşuq, bu gün davam etdirəcəyik. Bu, Cənubi Qafqazda vəziyyətin nizamlanmasına aiddir. Aydındır və hamıya yaxşı məlumdur ki, Rusiya, o cümlədən Ukrayna istiqamətində böhranlarla üzləşir. Amma Rusiyanın Cənubi Qafqazdakı vəziyyətdə tarixi iştirakı son bir neçə ildə bizə bu hadisələrə cəlb olunmağın vacibliyini diktə edir, əlbəttə, tərəflərin lazım bildiyi hissədə”.*

Vladimir Putin, həmçinin qeyd edib: *“Əgər biz Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin imzalanmasına nail olmaq üçün nəsə edə biləriksə, vəziyyəti delimitasiya, sərhədlərin demarkasiyasına gətirib çıxararıqsa, Sizinlə dəfələrlə qeyd etdiyimiz kimi, müvafiq logistika istiqamətlərinin və ya iqtisadiyyatın qarşısında maneələri aradan qaldırarıqsa, buna çox şad olardıq”.*

**“Azərbaycan Rusiya ilə bütün istiqamətlərdə qarşılıqlı fəaliyyəti möhkəmləndirmək əzmindədir”**

Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana dövlət səfəri ikitərəfli münasibətlər üçün müstəsna əhəmiyyətə malikdir.

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinlə geniş tərkibdə görüşdə söyləyib.

Dövlətimizin başçısı bildirib: *“Bu gün artıq Sizinlə fikir mübadiləsi apardıq və ölkələrimiz arasında münasibətlərin - dostlar, qonşular və müttəfiqlər arasında münasibətlərin necə inkişaf etməsindən məmnunluq ifadə etdik. Bütün sahələrdə müsbət dinamika görürük. Nümayəndə heyətlərimizin tərkibi də bunu çox əyani şəkildə göstərir. Yəni, həqiqətən də müzakirə, qarşılıqlı fəaliyyət üçün çoxlu mövzular var və bizim qarşılıqlı fəaliyyətimizin əhatə dairəsi ildən-ilə genişlənir. Biz bütün sahələrdə qarşılıqlı fəaliyyətimizi gücləndirmək əzmindəyik. Əminəm ki, Sizin səfəriniz ölkələrimizi və xalqlarımızı bir-birinə daha da yaxınlaşdırmaq istiqamətində növbəti mühüm addım olacaq”.*

## “AZƏRBAYCAN BRICS-Ə DAXİL OLMAQ ÜÇÜN RƏSMİ MÜRACİƏT EDİB”

Bunu AZƏRTAC-a açıqlamasında Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ayxan Hacızadə deyib.




Qeyd edək ki, hazırda 9 üzvü olan BRICS 2006-cı ildə yaradılıb (Braziliya, Rusiya, Hindistan, Çin, Cənubi Afrika Respublikası, Misir, Efiopiya, İran və Birləşmiş Ərəb Əmirlikləri). BRICS 2009-cu ildən bəri hər il rəsmi sammitlərdə toplaşan və çoxtərəfli siyasətləri koordinasiya edən vahid geosiyasi bloka çevrilib.

Xatırladaq ki, bu il iyulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə” qəbul olunub. Bəyannamənin 4.5-ci bəndinə əsasən, Azərbaycan tərəfi BRICS-ə daxil olmaq arzusunu ifadə edib və Çin tərəfi BRICS əməkdaşlığında Azərbaycanın iştirakını dəstəkləyib.

## COP29 Azərbaycan Əməliyyat Şirkəti və UNFCCC texniki sınaqlara başlayıb




“Cari ilin noyabrında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) müxtəlif istiqamətlərdə hazırlıq prosesləri davam edir”.

COP29 Azərbaycan Əməliyyat Şirkətindən Trend-ə verilən məlumata görə, tədbirin UNFCCC-nin protokol və standartlarına uyğun şəkildə təşkili üçün informasiya və kommunikasiya texnologiyaları (İKT) sistemlərinin fasiləsiz və qüsursuz təmin edilməsi məqsədilə texniki sınaq mərhələsinə start verilib. Texniki Konsepsiyanın Təsdiqi (Proof of Concept – PoC) adlanan bu mərhələ COP29 Azərbaycan Əməliyyat Şirkəti və UNFCCC-nin səlahiyyətli nümayəndələrinin iştirakı ilə 19 avqust tarixində tədbir məkanı olan Bakı Stadionunda başlayıb. Sınaqların ilk günü UNFCCC nümayəndələri hazır infrastrukturlarda mövcud sistemlərlə tanış olub, iki mövcud məlumat bazası mərkəzini, eləcə də aqreqasiya və kommunikasiya otaqlarını ziyarət ediblər.

Üç həftə davam edəcək PoC mərhələsi iqlim konfransı zamanı istifadə ediləcək şəbəkə və xidmətlərin təhlükəsizliyi, funksionallığı və effektivliyi müxtəlif sınaqlar vasitəsilə yoxlanışdan keçiriləcək. Bu yoxlamalar İKT və simsiz şəbəkə xidmətlərinin təhlükəsizliyi, akkreditasiya prosesinin simulyasiya sınaqları, eləcə də kibertəhlükəsizlik sınaqları kimi bir sıra mərhələləri əhatə edəcək. Bu yoxlamalar tədbir zamanı baş verə biləcək hər hansı bir problemin qarşısının alınması üçün texniki hazırlıqların təmin edilməsinə imkan yaradaraq mümkün risklərin qiymətləndirilməsinə xidmət edir.

# "Qazprom" və SOCAR strateji tərəfdaşlığı genişləndirir

"Qazprom" və Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) çoxşaxəli strateji tərəfdaşlığın genişləndirilməsi haqqında razılığa gəlib.
Bu barədə "Qazprom"un məlumatında deyilir.
"Qazprom"un İdarə Heyətinin sədri Aleksey Millerin rəhbərlik etdiyi nümayəndə heyəti Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana dövlət səfəri çərçivəsində tədbirlərdə iştirak edib.




***"Qazprom" və SOCAR arasında qarşılıqlı faydalı tərəfdaşlıq dinamik şəkildə inkişaf edir. Xüsusilə, söhbət "Şimal-Cənub" layihəsindən və 2024-cü ilin sentyabrında Hərtərəfli Elmi-Texniki Əməkdaşlıq Proqramının imzalanmasından gedir. Çoxşaxəli strateji tərəfdaşlığın genişləndirilməsi ilə bağlı razılıq əldə olunub"***, - deyə A.Miller qeyd edib.

# 241 min manat vəsait sahibkarlar tərəfindən istehlakçılara qaytarılıb

Cari ilin I yarımili ərzində lazımi keyfiyyətdə olan, lakin istehlakçıların tələblərini ödəməyən, həmçinin qüsurlu malların qaytarılması, bağlanılmış müqavilələrin ləğv edilməsi və digər hallarla bağlı təmin olunmuş müraciətlər üzrə 241 min manat vəsait sahibkarlar tərəfindən istehlakçılara qaytarılıb. Dövlət Xidmətindən bildirilib ki, ötən ilin müvafiq dövründə bu göstərici 221 min manat təşkil edib.
Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti istehlakçı hüquqlarının müdafiəsi və istehlak bazarına nəzarət sahəsində vətəndaş müraciətlərinin operativ həlli və istehlakçı-sahibkar münasibətlərinin tənzimlənməsinə yönələn tədbirlərini davam etdirir.

# SOCAR Vyetnamın enerji şirkətləri ilə əməkdaşlığı genişləndirir




Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və Vyetnamın "VietsoVPetro" və "PetroVietnam" şirkətləri arasında əməkdaşlığın genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.
Bu barədə SOCAR-dan məlumat verilib.
Bildirilib ki, SOCAR-ın vitse-prezidenti Babək Hüseynov Vyetnamın "VietsoVPetro" şirkətinin qazma işləri üzrə baş direktoru Fam Xuan Son və "PetroVietnam" şirkətinin neft və qaz müqavilələrinin idarə edilməsi şöbəsinin rəhbəri Tran Manh Cuong ilə görüşüb.
Görüşdə bununla yanaşı, təcrübə mübadiləsinin vacibliyi qeyd edilib, qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

# Şimal-Cənub Dəhlizi ilə tranzit yükdaşımalarda artım qeydə alınıb

Bu ilin yanvar-iyul aylarında Şimal-Cənub Dəhlizi ilə tranzit yükdaşımalarda ötən ilin eyni dövrü ilə müqayisədə 25% artım qeydə alınıb. Belə ki, ötən ilin müvafiq dövründə 347 min 429 ton olan daşıma bu il 434 min 651 tona yüksəlib.
Bu ilin yanvar-iyul aylarında Şimal-Cənub Dəhlizi ilə tranzit yükdaşımalarda ötən ilin eyni dövrü ilə müqayisədə 25% artım qeydə alınıb. Belə ki, ötən ilin müvafiq dövründə 347 min 429 ton olan daşıma bu il 434 min 651 tona yüksəlib.



# "Bakı Mərmər Qranit" özəlləşdirildi



"Bakı Mərmər Qranit" Məhdud Məsuliyyəti Cəmiyyətinin dövlətə məxsus paylarının satışı ilə bağlı elan edilmiş investisiya müsabiqəsinə yekun vurulub.
"Omax Sənaye Qrupu" MMC "Bakı Mərmər Qranit" MMC-nin dövlətə məxsus paylarının satışı üzrə keçirilən investisiya müsabiqəsinin qalibi olub. Müsabiqə qalibi 10 milyon 500 min manat həcmində İnvestisiya Proqramının icrasına dair öhdəlik götürüb.
İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən ölkənin tikinti materialları sənayesi sektorunda fəaliyyət göstərən daha bir müəssisənin - "Bakı Mərmər Qranit" MMC-nin dövlətə məxsus paylarının satışı üzrə keçirilən investisiya müsabiqəsinin qalibi müəyyənləşib.
Müsabiqə komissiyası tərəfindən iddiaçıların təqdim etdiyi təkliflər qiymətləndirilib və daha əlverişli şərtlər təklif edən "Omax Sənaye Qrupu" Məhdud Məsuliyyətli Cəmiyyəti investisiya müsabiqəsinin qalibi elan olunub və müsabiqənin qalibi ilə alqı-satqı müqaviləsi imzalanıb.
Müqaviləyə əsasən, investor dövlət büdcəsinə 10 milyon manat məbləğində vəsaitin köçürülməsi və 2 il ərzində müəssisədə 10 milyon 500 min manat həcmində İnvestisiya Proqramının icrasını təmin edəcəkdir.
Proqram çərçivəsində mövcud bina və tikililərin təmiri, mərmər-qranit avadanlıqlarının (onların elektron idarəetmə sistemləri daxil olmaqla) təmiri və ya yenilənməsi, polad boru və profillərin, müxtəlif güclərdə hava kompressorlarının, təzyiqli avtoyuma avadanlıqlarının, istixana komplekslərinin metal konstruksiyalarının istehsalı xəttinin qurulması, habelə bəzi digər istiqamətlərə investisiya qoyuluşlarının həyata keçirilməsi nəzərdə tutulur.
İnvestisiya Proqramının icrası müəssisədə ən azı 100 yeni iş yerinin açılmasına imkan yaradacaq.

# Azərbaycanın magistral qaz kəmərlərindən əldə etdiyi gəlirlər artıb

Bu ilin yanvar-iyun aylarında Azərbaycanın magistral qaz kəmərləri ilə yükdaşımalardan əldə etdiyi gəlirləri 1359813 min manat təşkil edib, bu da illik müqayisədə 7,8% artım deməkdir. Dövlət Statistika Komitəsindən Trend-ə verilən məlumata görə, ötən ilin müvafiq dövründə sözügedən göstərici 1261 251,7 min manat səviyyəsində olub.
Qeyd edək ki, cari ilin yanvar-iyun aylarında Azərbaycanda magistral qaz kəmərləri ilə 20 540,7 mln. kubmetr qaz nəql edilib və əvvəlki ilin göstəricisinə nisbətən 1,3% artım müşahidə olunub. Qaz nəqlinin 55,6%-i Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz boru kəməri vasitəsilə həyata keçirilib. Belə ki, hesabat dövründə bu kəmərlə 11 418,9 mln. kubmetr qaz ötürülüb (2.6%-lik artım).



# Alman və fransız şirkətləri Xəzərdə terminal gücünün artırılmasını planlaşdırır



Xarici şirkətlərin Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutuna (TITR) artan marağı Qazaxıstan Nəqliyyat Nazirliyi tərəfindən qeyd olunub.
Qazaxıstan Respublikası Nəqliyyat Nazirliyinin Dəmir Yolu və Su Nəqliyyatı Komitəsinin sədr müavini Kasım Tlepov bununla bağlı bildirib: *"Xarici investorlar gəmiqayırma sahəsinə, Qazaxıstan limanlarının infrastrukturuna investisiya qoymağa və hətta öz gəmilərini gətirməyə hazırdırlar"*.
Onun sözlərinə görə, Niderland şirkəti yüklərin daşınması üçün təkcə öz gəmilərindən istifadə etməyi deyil, həm də respublikada bərə və konteyner gəmilərinin istehsalını yaratmağı planlaşdırır.
Almaniyanın RINUS və Fransanın CMA CGM nəqliyyat şirkətləri Aktau limanında terminal qurğularının yaradılmasında maraqlıdırlar. Birləşmiş Ərəb Əmirliyinin "Abu Dhabi Ports" şirkəti Qazaxıstan tərəfi ilə birlikdə Kurık limanında əlavə terminal tikmək imkanını nəzərdən keçirir.
Özbəkistan da Orta Dəhliz marşrutu ilə yüklərin tranzitinə maraq göstərir. Kurık limanı vasitəsilə bu ölkənin yük maşınları ilə ağır tonnajlı avtomobillərin tranziti il ərzində 63 faiz artıb. Nəqliyyat Nazirliyinin proqnozlarına görə, 2029-cu ilə qədər dəhlizin ötürücülük qabiliyyəti iki dəfə - ildə 6 milyon tondan 10 milyon tona qədər arta bilər.

# "COP29 çərçivəsində təxminən 80 min qonağımız olacaq"

"Azərbaycan COP29-da bütün dünyaya atəşkəslə bağlı çağırış edəcək".
Bunu energetika nazirinin müavini, bu ilin noyabr ayında Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) baş katibi Elnur Soltanov Türkiyənin "Anadolu" agentliyinə müsahibəsində deyib.
O bildirib ki, COP29-un əsas mövzusu iqlim dəyişikliyi olacaq: *"Həmçinin inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrə daha çox dəstək göstərməsi də COP29-un gündəliyində olacaq. İqlim dəyişikliyi ən çox Afrikaya təsir edir"*.



E.Soltanov xatırladıb ki, Ermənistan da COP29-a dəvət edilib: ***"Təxminən 80 min qonağımız olacaq. Dünyanın bütün prezidentlərinə dəvət göndərilib. 50-dən çox dövlətdən nazirlər gələcək. Bu rəqəmin artacağı da gözlənilir. COP29 Azərbaycanın indiyə kimi ev sahibliyi etdiyi digər bütün tədbirlərlə müqayisə edilməyəcək tədbir olacaq. İqlim müzakirələrinə liderlik edəcəyik. Azərbaycanın qonaqpərvərliyini ortaya qoyacağıq. COP-un uğursuz olma ehtimalı yoxdur"***.

# Azərbaycanda həyat sığortası üzrə ödənişlər 77% artıb

Azərbaycanda 2024-cü ilin yanvar-iyun aylarında könüllü həyat sığortası bazarı son bir ildə 18 faiz artım göstərib.
Həyat sığortası şirkətləri ümumilikdə 400.45 milyon manat sığorta haqqı yığıblar və bu, keçən ilin eyni dövründəki nəticəni 62.14 milyon manat üstələyir. Şirkətlərin ödənişlərinin həcmi isə illik müqayisədə 127.26 milyon manat və ya 77% artımla 293.52 mln. manata yüksəlib. Ödənişlərin yüksəlməsi bu biznesin gəlirliliyinin düşməsinə təsir edib.
Keçən il sığorta haqlarının ödənişlərlə fərqindəki 172.05 mln. manatlıq müsbət dinamika cari ilin eyni dövründə 106.93 manata düşüb.

# Sığorta bazarı 9 faizdən çox böyüyüb

Bu ilin yanvar-iyul aylarında Azərbaycandakı 17 sığorta şirkətinin xətti ilə 833,6 milyon manat sığorta haqqı toplanılıb.
AZƏRTAC Azərbaycan Mərkəzi Bankına istinadən xəbər verir ki, bu, ötən ilin eyni dövrünə nisbətən 9,4 faiz çoxdur.
Hesabat dövründə sığorta şirkətlərinin həyata keçirdikləri ödənişlərin məbləği isə 440,2 milyon manat təşkil edib. Bu isə illik müqayisədə 55,6 faiz çoxdur.



# "Matanat A" şirkəti fəaliyyətində daima innovasiyalara və yaşıl inşaat texnologiyalarının tətbiqinə üstünlük verir

Azərbaycanda ətraf mühit problemlərinin həlli istiqamətində genişmiqyaslı işlərin görülməsi, ekoloji vəziyyətin yaxşılaşdırılmasına yönəlmiş dövlət siyasəti ölkənin uzunmüddətli inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Bu səbəbdən Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilib.

Ölkəmiz qlobal təşəbbüslərə ilk qoşulan ölkə olaraq, beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir. Bütün bunlar Azərbaycanın dünyanın etibarlı "yaşıl enerji" tərəfdaşı kimi mövqeyini gücləndirir. Bu gün ölkəmizin beynəlxalq aləmdə nüfuzunun daha da yüksəldiyi beynəlxalq ictimaiyyətə məlumdur. Azərbaycan iqlim dəyişikliklərinə qarşı ətraf mühitin qorunması istiqamətində ən ciddi addımlar atan ölkələrdəndir.

2024-cü ildə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının COP29 tədbirinə Azərbaycanın ev sahibliyi etməsi, dünya birliyinin Azərbaycanı bu mötəbər tədbirdə dəstəkləməsinin səbəbi məhz ölkəmizin qazandığı nüfuzdan, bu sahədə zəngin təcrübəyə malik olmasından, BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyü, o cümlədən Qoşulmama Hərəkatına sədrliyi zamanı dəstək qazanmasından və etimadı tam doğrultmasından, Prezident İlham Əliyevin irəli sürdüyü qlobal təşəbbüslərin beynəlxalq ictimaiyyət tərəfindən daim rəğbətlə qarşılanmasından, habelə dünya səviyyəsində dövlətimizin başçısının yürütdüyü siyasətə göstərilən güclü dəstəkdən irəli gəlir.

Cari ilin noyabrında ölkəmizdə keçiriləcək COP 29 beynəlxalq konfransında Azərbaycan iqlim dəyişikliklərinə verdiyi töhfələrini əyani şəkildə dünya ictimaiyyətinə çatdıracaq və bütün dünyanı bu qlobal çağırışa həmrəylik göstərilməsində birləşdirəcəkdir. Eyni zamanda, "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində ölkəmiz COP29-da əhəmiyyətli qərarların qəbul olunmasına təşəbbüs nümayiş etdirməklə yenə də özünün dünya liderliyini təsdiq edəcəkdir.

Dövlətimizin qarşıya qoyduğu prioritet məsələnin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilməsi, həmçinin 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi bu sahədə aparılan məqsədyönlü və ardıcıl dövlət siyasətinin təzahürüdür.

İnnovativ yaşıl tikinti materiallarının istehsalı və tətbiqi davamlı tikintinin təşviqində və sağlamlıq üçün "yaşıl dünyanın" yaradılmasında çox vacibdir. İnnovativ yaşıl tikinti materialları daha dayanıqlı tikinti sənayesinin yaradılmasında mühüm rol oynayır. Bu materiallardan istifadə etməklə ətraf mühitə təsiri azaltmaq, enerji səmərəliliyini yaxşılaşdırmaq və daha sağlam yaşayış təmin edilməsi mümkündür.

25 ilə yaxındır ki, uğurla fəaliyyət göstərən "Matanat A" şirkəti fəaliyyətində daima innovasiyalara və yaşıl inşaat texnologiyalarının tətbiqinə üstünlük vermişdir. Şirkət istehsal etdiyi məhsullarda enerjiyə qənaət, ekoloji və iqtisadi səmərəlilik, təhlükəsizlik, davamlılıq və cəlbedici dizayn-üslub faktorlarının vəhdətinə önəm verir.

Şirkət 26 məhsul qrupunda fəaliyyət göstərməklə, 2000-dən artıq məhsul çeşidinə, 200-dən çox ticarət markasına və yüksək texnologiyalı müasir zavodlara malikdir. Dünya miqyasında patentləşdirilmiş bir neçə ixtiranın müəllifidir. Qloballaşmanı özünün əsas strateji xətti hesab edən "Matanat A" şirkəti "Made in Azerbaijan" adı altında dünyanın bir çox ölkələrində fəaliyyət göstərir. Əsas məhsul qruplarına gipskarton lövhələri (alçıpan), daxili arakəsmə sistemləri, gips əsaslı suvaq və şpatklyovkalar, keramika yapışdırıcıları, hidroizolyasiya məhsulları, daş yunu, fasad quru divar sistemləri, istilik izolyasiya məhsulları, əhəng və əhəngdaşı əsaslı məhsullar, lak və boya məhsulları, dekorativ fasad örtükləri, epoksid əsaslı boya və örtüklər, beton qatqıları və digər çoxsaylı məhsul qrupları aiddir.

"Matanat A" şirkətinin biznes fəlsəfəsinin əsasında yeni inşaat texnologiyalarının yaradılması və mövcud texnologiyaların tətbiq səmərəliliyinin artırılması durur. Bu səbəbdəndir ki, şirkət Kəşf və İxtiraların Tədqiqi və Tətbiqi Akademiyasını (KİTTA) təsis etmişdir. Qısaca olaraq KİTTA adlanan bu akademiyada inşaatın qlobal problemləri tədqiq edilir, yaşıl texnologiyalara əsaslanan yeni inşaat həlləri üzərində elmi-tədqiqat işləri həyata keçirilir və inşaatın müxtəlif parametrlər üzrə keyfiyyəti yüksəldən yeniliklər işlənib hazırlanılır.

Şirkətin uğurlu innovasiya strategiyası nəticəsində innovativ və yaşıl inşaat texnologiyalarına əsaslanan məhsullar olan Fasnatural, ekoloji sağlam Ağdağ suvağı, innovativ gips bloklarının istehsalı, suda batmayan bloklar və dekorativ ornamentlər, Ağdağ Natural Gipskarton lövhələri, Azvul mineral daş yunu, Azerlime suvaq üçün əhəng məhsulu quru qarışığın ixtirası yaradılmış və onların bir çoxu patentləşdirilmişdir.

Ölkəmiz bu mühüm tədbirin yüksək səviyyədə keçirilməsi üçün zəruri olan bütün işləri görür. Təşkilat və mahiyyət etibarilə noyabr ayında keçiriləcək COP 29 kimi mötəbər tədbirlə ölkəmizin prioritetləri ilə yaxından tanış olmaq imkanı, eləcə də unikal fürsətlərin yaranacağına isə şübhə yoxdur.

**"Matanat A"
Şirkətlər Qrupu**

# Beynəlxalq liderlik müsabiqəsinin qalibləri mükafatlandırıldı




***Türkiyənin Anadolu Universitetində Beynəlxalq Dostluq Gününə həsr olunan Beynəlxalq Liderlik Müsabiqəsinin mükafatlandırma mərasimi keçirilib. Mərasim Anadolu Universitetinin rektoru Fuat Ərdal, universitetin professor-müəllim heyəti, Anadolu Universiteti Azərbaycan Proqramlarının Koordinatoru-Mükafatlandırma Komitəsinin sədri Azər Hətəmov, komitə üzvləri, mükafatçılar, tələbələr, Azərbaycanın və Türkiyənin media nümayəndələrinin və tanınmış elm adamlarının iştirakı ilə onlayn formatda baş tutub.***

Anadolu Universitetinin Beynəlxalq Liderlik müsabiqəsi müxtəlif sahələr üzrə müstəsna xidmətlər göstərmiş, liderlik nümayiş etdirmiş peşəkarları qiymətləndirir və onlara mükafatlar təqdim edir. Builki tədbir beynəlxalq əməkdaşlığın gücünü və sərhədləri, habelə mədəniyyətləri aşan davamlı dostluq bağlarını qeyd etdiyi üçün xüsusilə əlamətdar oldu.

Mərasimi giriş nitqi ilə açan Anadolu Universiteti Azərbaycan Proqramlarının Koordinatoru Azər Hətəmov beynəlxalq müsabiqənin əhəmiyyətindən danışaraq, Anadolu Universiteti və universitetin Azərbaycan proqramlarının Türkiyə və Azərbaycan arasındakı əbədi və sarsılmaz dostluq, qardaşlıq bağlarını ən ümdə məsələ sayaraq, iki qardaş ölkənin liderləri tərəfindən atılan tarixi əhəmiyyətli addımlar və əldə olunan uğurlar barədə məlumat verdi.

Sonra tədbir iştirakçılarını salamlayan Anadolu Universitetinin Açıq Təhsil fakültəsinin dekanı Əli Rəsül Usul beynəlxalq dosluq gününə həsr olunan müsabiqənin əhəmiyyətini qeyd edərək, Türkiyə və Azərbaycan dövlətləri arasındakı mövcud dostluq və qardaşlıq münasibətlərinin digər dövlətlərə və onların rəhbərlərinə bir örnək olduğunu bildirdi.

Mərasimdə çıxış edən Anadolu Universitetinin rektoru, professor Fuat Ərdal qlobal birliyin və anlaşmanın gücləndirilməsində liderliyin əhəmiyyətli rolunu vurğuladı və qeyd etdi ki, Türkiyə və Azərbaycan mədəni sərvətləri ilə bir-birini qidalandıran, sosial həmrəyliyi ilə bir-birini gücləndirən, strateji tərəfdaşlıqları ilə regional sabitliyə töhfə verən iki qardaş dövlətdir. Ticarət əlaqələrimiz günü-gündən güclənir, akademik əməkdaşlığımız gələcəyin alimlərini, liderlərini və novatorlarını yetişdirməkdə davam edir. Bu dərin əlaqələr təkcə bu günü deyil, gələcəyi də formalaşdıracaq, hər iki ölkənin firavanlığına və inkişafına xidmət edəcəkdir.

**Sonra rektor Fuat Ərdal Beynəlxalq Müsabiqənin müvafiq nominasiyalar üzrə qaliblərini elan etdi:**

*- Lider İş Adamı nominasiyasının qalibi Camal Yanğın - Türkiyə Respublikasının Xarici İqtisadi Əlaqələr Şurasının (Dış Ekonomik İlişgiler Kurulu-DEİK) üzvü, Azərbaycan-Türkiyə İş Adamları Birliyinin İdarə Heyətinin sabiq sədri, İstanbul Çarşı şirkətinin təsisçisidir.*

*- İnnovasiya üzrə Liderlik nominasiyasının qalibi İlham Əhmədov - Azərbaycan Pedaqoji Universitetinin dosenti, Təhsildə İnnovasiyaların tətbiqi mövzusunda çoxsaylı elmi məqalələrin müəllifi və tanınmış təhsil ekspertidir.*

*- Sülh Lideri nominasiyası üzrə qalib Hülusi Kılıç - Türkiyənin Azərbaycanda və Moldovadakı sabiq səfiri, tanınmış diplomat, "İmza" İctimai Birliyinin Türkiyə təmsilçisidir.*

*- Qlobal Liderlik və İdarəçilik nominasiyası üzrə qalib Samir Novruzov – "Management Consulting Group" şirkətinin təsisçisi və Baş icraçı direktoru, Birləşmiş Krallıq İdarəçilik İnstitutunun, ABŞ-nin İctimai Siyasi Münasibətlər və İdarəçilik üzrə Qlobal Şərəf Cəmiyyətinin fəxri üzvüdür. İdarəçilik və liderlik sahələrinə aid məqalələri "Management Consulting Journal", "Open Journal Business and Management", "Open Journal of Leadership" kimi beynəlxalq elmi jurnallarda dərc olunub.*

Mərasim müsabiqənin təşkil edilməsinin və liderliyin əhəmiyyətli rolu barədə qaliblərin ürək sözləri ilə davam etdirildi. Mərasimin sonunda iştirakçılar Anadolu Universitetinə və Anadolu Universiteti Azərbaycan Proqramlarına müvafiq fəaliyyət sahələri üzrə görkəmli liderləri qiymətləndirdiyinə, həmçinin hər kəs üçün daha yaxşı bir gələcək qurmaq məqsədilə dostluğun və əməkdaşlığın vacibliyini vurğulayan belə önəmli mərasimin təşkilində göstərdiyi səylərə görə minnətdarlıqlarını bildirdilər.

Anadolu Universiteti haqqında: Türkiyənin Əskişəhər şəhərində yerləşən Anadolu Universiteti təhsil, tədqiqat və ictimai xidmət sahələrində mükəmməlliyi ilə tanınan aparıcı təhsil müəssisəsidir. Qlobal liderlərin təşviqinə diqqət yetirərək, universitet tələbələrin dünyaya müsbət təsir göstərməsi üçün imkanlarını artırılmasına yönəlmiş geniş proqram və təşəbbüslər təklif edir.

**Namiq Qədimoğlu**

# Duru qida yağlarının istehsalında böyük artım olub



Azərbaycan 2024-cü ilin ilk yarısında 6 047.6 ton həcmində qarğıdalı yağı istehsal etməklə öncəki ili üstələyib.

Banker.az Dövlət Statistika Komitəsinə istinadən xəbər verir ki, bu da 2023-cü ili 2390 ton və ya 65 faiz üstələmiş olub.

2023-cü ilin ilk üç ayında 3 657.5 ton qarğıdalı yağı istehsal edilmişdi. Bu il Azərbaycan xaricdən 3 520.2 tonluq xam qarğıdalı yağı ($4.49 mln.) və 6 064.3 ton hazır qarğıdalı ($8.94 mln.) idxal edib.

İstehlak səbətində mühüm yerə sahib olan günəbaxan yağının istehsalı isə 14 435.6 ton olub ki, bu, illik müqayisədə 26 faiz artımdır. Günəbaxanın idxal həcmi cari ilin ilk 6 ayında 22 579.9 ton ($18.47 mln.) olub.

Keçən ilin analoji dövründə 1 534.6 ton istehsal edilmiş pambıq yağının həcmi cari ildə kəskin enişlə 79.4 tona düşüb.

DSK-ya açıqlanan məlumatlara əsasən, ölkədə qida səbətində əsas yerə sahib olan yağ – kərə yağının istehsalı düşüb. Belə ki, 2024-cü ilin ilk yarısında süddən əldə edilən kərə yağının həcmi illik müqayisədə azalaraq 10 598.9 tona düşüb. Bu, illik müqayisədə 5 faiz azalmadır. Kərə yağının idxal həcmi 8 164.9 ton ($45.03 mln.) təşkil edib.

Zeytun yağı isə illik müqayisədə 16 faiz azalma ilə 413.6 tona düşüb.

# Çexiya Azərbaycanın üçüncü ən iri neft alıcısına çevrilib



Çex Respublikası 2024-cü ildə Azərbaycandan xam neft alışını bir qədər də yüksəldərək üçüncü ən iri müştəriyə çevrilib.

Banker.az xəbər verir ki, Mərkəzi Avropa ölkəsi cari ilin yanvar-iyul ayları ərzində ölkəmizdən 941.7 min ton və ya 597.1 mln. ABŞ dolları dəyərində xam neft alıb.

Bununla da, Çexiya İtaliya və İsrailin ardından üçüncü ən iri xam neft alıcısına çevrilib.

Keçən ilin eyni dövründə Çexiya Azərbaycandan 906.4 min ton və ya 524.6 mln. dollarlıq xam neft almışdı. Bu barədə Dövlət Gömrük Komitəsi məlumat verib. Həmin müddətdə Hindistan, İspaniya və Türkiyə müvafiq olaraq 3, 4 və 5-ci sırada idi ki, 6-cı sırada Çexiya olmuşdu.

Beləliklə, cari ilin ilk yeddi ayında Mərkəzi Avropa ölkəsi ixracın həcmini illik müqayisədə 4% artırmış olub.

Bir ton xam neftin qiyməti 2023-cü ilin ilk 7 ayında ortalama 578.8 dollar olduğu halda, cari ildə qiymətlər 10% artaraq 634.1 dollara yüksəlib.

# “UNİVERSAL METAL” QSC-nin 31 dekabr 2023-cü il tarixinə BALANS HESABATI

| | Qeyd | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| ***Uzunmüddətli aktivlər*** | | | |
| Əmlak və avadanlıqlar (Əsas vəsaitlər) | 7 | 63 930,94 | 64 186,44 |
| Qeyri-maddi aktivlər | 8 | | |
| Verilmiş borclar | | | |
| Uçota alınmış investisiyalar | | | |
| Təxirə salınmış vergi aktivləri | | | |
| **Cəmi uzunmüddətli aktivlər** | | **63 930,94** | **64 186,44** |
| ***Qısamüddətli aktivlər*** | | | |
| Ehtiyatlar | 10 | 3 189,54 | 45 418,72 |
| Qısamüddətli debitor borcları | 11 | 133 463,55 | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 14 | 162 578,11 | 43 598,74 |
| Digər aktivlər | 12 | 64 172,38 | 59 422,35 |
| Sair qısamüddətli aktivlər | | | |
| Gələcək dövrün xərcləri | 12 | | |
| Sair qısamüddətli Maliyyə aktivləri | | | |
| **Cəmi qısamüddətli aktivlər** | | **363 403,58** | **148 439,81** |
| **CƏMİ AKTİVLƏR** | | **427 334,52** | **212 626,25** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| Nizamnamə kapitalı | 20 | 2 000,00 | 2 000,00 |
| Kapital ehtiyatları | | | |
| Hesabat dövrünün bölüşdürülməmiş xalis mənfəəti /zərəri | 30 | 156 582,73 | -708 138,00 |
| Əvvəlki illərin bölüşdürülməmiş xalis mənfəəti /zərəri | | -634 392,31 | 73 745,69 |
| **CƏMİ KAPİTAL** | | **- 475 809,58** | **- 632 392,31** |
| **Öhdəliklər** | | | |
| Uzunmüddətli öhdəliklər | 19 | 536 645,00 | 490 045,00 |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | | |
| Gələcək dövrün gəlirləri | | | |
| Təxirə salınmış vergi öhdəlikləri | | - | |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **536 645,00** | **490 045,00** |
| ***Qısamüddətli öhdəliklər*** | | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | 16 | | |
| Qısamüddətli borclar (alınmış avanslar) | | | |
| Qısamüdətli kreditor borcları | 18 | 307 721,12 | 316 111,06 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 17 | 58 777,98 | 38 862,50 |
| Sair qısamüdətli öhdəliklər | | | |
| **Cəmi qısa müddətli öhdəliklər** | | **366 499,10** | **354 973,56** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **903 144,10** | **845 018,56** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **427 334,52** | **212 626,25** |

MƏNFƏƏT VƏ ZƏRƏRLƏR HAQQINDA HESABAT

| | Qeyd | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|---|
| Əsas əməliyyat gəliri | 21 | 4 660 099,00 | 2 090 720,10 |
| Satışın maya dəyəri | 25 | -4406 774,26 | -2735759,25 |
| Ümumi mənfəət (zərər) | | 253 324,74 | - 645 039,15 |
| Daşınmaz əmlakın icarəsindən gəlirləri | | | |
| Kommersiya xərcləri | | | |
| İnzibati xərclər | 26 | - 85 333,79 | - 62 674,00 |
| Sair əməliyyat xərcləri | | | |
| Əməliyyat mənfəəti (zərəri) | | 167 990,95 | - 707 713,15 |
| Maliyyə gəlirləri | | | |
| Maliyyə xərcləri | | | |
| Fövqəladə gəlirlər | | | |
| Fövqəladə xərclər | | | |
| Vergidən azad olan gəlirlər üzrə xərclər | | | |
| Vergidən azad olan gəlirlər | | | |
| Gəlirdən çıxılan vergilər və yığımlar | 26 | - 640,59 | - 424,85 |
| Məzənnə fərqi | | | |
| Vergitutmadan əvvəl mənfəət (zərər) | | 167 350,36 | - 708 138,00 |
| Keçmiş illərin zərərinə silinir | | | - |
| Mənfəət üzrə azadolmalar və güzəştlər | | | - |
| Vergidən azad olan gəlirlər | | - | - |
| Vergiyə cəlb olunan mənfəət | | 167 350,36 | - 708 138,00 |
| Mənfəət vergisi xərci | 29 | - 10 767,63 | |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 30 | 156 582,73 | -708 138,00 |
| Mənfəətdə iştirak payı: | | | |
| Səhmdarların payı | | 836,75 | - |
| Səhmdarların payına düşən bir səhmin mənfəəti: | | | |
| Bir səhmin əsas mənfəəti | 30 | 782,91 | - |

| KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT | Qeyd | Nizamnamə Kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi Kapital |
|---|---|---|---|---|---|
| **31 dekabr 2021-ci il tarixə qalıq** | | **10,00** | **-** | **73 745,69** | **73 755,69** |
| 2022-ci il üzrə xalis mənfəət | 30 | | | - 708 138,00 | **- 708 138,00** |
| Mülkiyyətçilərin kapital qoyuluşları | 20 | 1 990,00 | | | **1 990,00** |
| Elan edilmiş dividendlər | | | | | - |
| Mənfəətin istifadəsi | | | | | - |
| Maddələr arasında köçürmələr | | | | | - |
| **31 dekabr 2022-ci il tarixə qalıq** | | **2 000,00** | **-** | **- 634 392,31** | **- 632 392,31** |
| 2023-cü il üzrə xalis mənfəət | 30 | | | 156 582,73 | **156 582,73** |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | - |
| Elan edilmiş dividendlər | | | | | - |
| Mənfəətin istifadəsi | | | | | - |
| Maddələr arasında köçürmələr | | | | | - |
| **31 dekabr 2023-cü il tarixə qalıq** | | **2 000,00** | **-** | **- 477 809,58** | **- 475 809,58** |

PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

| | Qeyd | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Hesabat dövründə xalis mənfəət /zərər | | 167 350,36 | - 708 138,00 |
| Mənfəət vergisi üzrə xərclər | 29 | - 10 767,63 | |
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər: | | | |
| Əsas vəsaitlərin amortizasiyası | 26 | 21 000,67 | |
| Əsas vəsaitlərin satışından və xaric olmasından gəlirlər/zərərlər | | 22 000,00 | |
| Qeyri-maddi aktivlərin amortizasiyası | 8 | | |
| Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər | | | |
| Ehtiyatlar üzrə artma/azalma | 10 | 42 229,18 | - 3 189,54 |
| Debitor borcları üzrə artma/azalma | 11 | - 133 463,55 | 14 641,24 |
| Sair qısamüddətli maliyyə aktivləri üzrə artma/azalma | | | |
| Digər aktivlərdə | 12 | - 4 750,03 | - 59 412,35 |
| Sair qısamüddətli aktivləri üzrə artma/azalma | | | |
| Alınmış avanslar üzrə artma/azalma | | | |
| Cari vergi və sosial sığortaöhdəlikləri üzrə artma/azalma | 17 | 19 915,46 | - 17 306,05 |
| Əməliyyat kreditor borcları və hesablaşmalar | | | |
| Sair qısamüddətli kreditor borcları | 18 | - 8 389,94 | 266 651,85 |
| Sair uzunmüddətli öhdəliklər | 19 | 46 600,00 | 489 900,00 |
| Maddələr arasında baş vermiş dəyişikliklər | | | |
| Mənfəət vergisi ödənilmişdir | | | |
| ***Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti*** | | **161 724,52** | **- 16 852,85** |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Əsas vəsaitlərin alınması | 7 | - 42 745,17 | - 30 208,00 |
| Qeyri-maddi aktivlərin alınması | 8 | - | |
| Uzunmüddətli kapital qoyuluşları | | | |
| Xaric olmuş əsas vəsaitlərin qalıq dəyəri | | | |
| Gələcək dövrün gəlirləri | | | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **- 42 745,17** | **- 30 208,00** |
| ***Məzənnə fərqi*** | | | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | | |
| Borc şəklində alınmış məbləğlərdən yaranan pul vəsaitlərinin daxilolmaları | 16 | | |
| Borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına yaranan pul vəsaitlərinin xaricolmaları | | | |
| Səhm buraxılışı | 20 | - | 1 990,00 |
| Kapital ehtiyatlarının dəyişməsi (Bölünmə balansına əsasən Əvvəlki illər üzrə bölüşdürülməmiş mənfəət) | | | |
| Dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin daxilolmalar | | | |
| Dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin xaric olmaları | | - | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **-** | **1 990,00** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin xalis artması (azalması)** | | **182 594,07** | **- 45 070,85** |
| **İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları** | 12 | **43 598,76** | **88 669,61** |
| **İlin sonuna pul vəsaitləri və bank overdraftları** | 12 | **162 578,11** | **43 598,76** |
| **İl ərzində artım/azalma** | | **118 979,35** | **- 45 070,85** |

AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI 1995

SƏRBƏST AUDİTOR | İNDEPENDENT AUDİTOR

Azərbaycan Respublikası, AZ1130
Bakı şəhəri, Ə. Naxçıvani küç. 24A/23
VÖEN: 1005147262
Audit icazəsi: SA/387

24A/23 A. Nahchivani street
AZ1130, Baku Azerbaijan
TAX ID: 1005147262
Audit License: SA/387

Phone: 070 338 6727
Phone: 050 338 6727
email: aliyev.n2012@gmail.com

**Müstəqil Auditorun Maliyyə Hesabatlarının Auditinə Dair Hesabatı**

**"UNİVERSAL METAL" Qapalı Səhmdar Cəmiyyətinin Rəhbərliyinə**

**Rəy**

Mən "UNİVERSAL METAL" Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra - şirkət) 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışam.

Hesab edirəm ki, qoşma maliyyə hesabatları Şirkətın 31 dekabr 2023-cü il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Rəy üçün əsaslar**

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar Mühasiblərin Etika Məcəlləsinin" (IESBA) tələblərinə uyğun olaraq Şirkətdən asılı deyiləm və mən digər etik öhdəliklərimizi IESBA məcəlləsinin tələblərə uyğun yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının İFRS (Beynəlxalq Maliyyə Hesabatları Standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Şirkətı ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Şirkətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi mən audit aparılan zaman peşəkar mühakimə tətbiq edirəm və peşəkar inamsızlıq nümayiş etdirirəm. Mən həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndirirəm, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçirirəm və rəyimi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirəm. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
- Şirkətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürəm.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndirirəm.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edimməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Şirkətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarıram. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığım halda, auditor hesabatımda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyəm və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimə dəyişiklik etməliyəm. Nəticələrim auditor hesabatımın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Şirkətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndirirəm.

Mən subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığım zaman daxili nəzarətdə aşkar etdiyim əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririrəm.

Mən həmçinin subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə bəyanat verirəm ki, müstəqilliyə və müstəqilliyimə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimə dair müvafiq etik normalarına riayət etmişəm.

Şirkətin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin nəzərinə çatdırılmış məsələlərdən mən cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirəm. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat verməsinin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmş şəkildə güman edildiyinə görə mən bu məsələ haqqında hesabatımda məlumatın verilməməsini qərara almadığım halda, mən bu məsələləri auditor hesabatında təsvir edirəm.

**Sərbəst Auditor**

**Əliyev Natiq Firuddin oğlu**

**Bakı şəhəri, Azərbaycan Respublikası**

**10 iyul, 2024-cü il.**

Azərbaycan Respublikası Auditorlar Palatası · Əliyev Natiq Firudin oğlu · Sərbəst auditor · VÖEN/TAX.ID 1005147262 · Independent auditor · Chamber of Auditors of Azerbaijan

## Özəlləşdirmədən büdcəyə 100 mln. manatdan çox vəsait daxil olub

Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən cari ilin ilk 7 ayında özəlləşdirmə və icarədən dövlət büdcəsinə 122,8 milyon manat vəsaitin ödənilməsi təmin edilib. Dövlət əmlakının özəlləşdirilməsi və icarəyə verilməsi sahəsində işlər davam etdirilir. Dövlət Xidmətindən bildirilib ki, bu ilin yanvar-iyul ayları ərzində 35 hərrac keçirilib. Hərraclarda 5 səhmdar cəmiyyətinin səhm paketi, 6 kiçik dövlət müəssisəsi, 465 nəqliyyat vasitəsi satılıb.

# “Mama-ginekologiyada müasir trendlər-Böyük Britaniya təcrübəsi” mövzusunda dəyirmi masa keçirilib




14 avqust 2024-ci il tarixində Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin və Mərkəzi Gömrük Hospitalının birgə təşkilatçılığı ilə “Mama-ginekologiyada müasir trendlər-Böyük Britaniya təcrübəsi” mövzusunda dəyirmi masa keçirilib.

Tədbirdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini, t.ü.f.d., dosent İsmayıl Əfəndiyev, Mərkəzi Gömrük Hospitalının rəisi - Baş həkimi Bəxtiyar Musayev, rəis müavini Nahidə Mahmudova, Böyük Britaniyanın Birmingem Qadın və uşaq hospitalının mama-ginekoloqu, PhD, Fidan İsrafil-Bəyli, Mərkəzi Gömrük Hospitalının və respublikanın aparıcı mama-ginekoloqları iştirak ediblər.

Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini, t.ü.f.d., dosent İsmayıl Əfəndiyev tədbiri açaraq, həm öz adından, həm Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, t.ü.f.d., Əməkdar həkim, tibb xidməti general-mayoru Ceyhun Məmmədovun adından İngiltərədən dəvət olunmuş qonağı - Birmingem Qadın və uşaq hospitalının mama-ginekoloqu, PhD, Fidan İsrafil-Bəylini və dəyirmi masa iştirakçılarını salamlayıb, Mərkəzi Gömrük Hospitalının fəaliyyəti, ilin sonuna qədər hospitalın ikinci binasının – Ana və Uşaq Sağlamlıq Mərkəzinin açılışı barədə ətraflı məlumat verib. İ.Əfəndiyev əminliyini bildirib ki, hazırda Mərkəzi Gömrük Hospitalı respublikamızda birinci yeri tutduğu kimi, gələcəkdə Ana və Uşaq Sağlamlıq Mərkəzi də daim ön sıralarda olacaq.

Mərkəzi Gömrük Hospitalının rəisi - Baş həkimi Bəxtiyar Musayev tezliklə Ana və Uşaq Sağlamlıq Mərkəzinin açılmasından, mərkəzin ən müasir tibbi avadanlıqlarla təchiz edilməsindən, hospitaldan bir sıra şöbələrin – Mama-ginekologiya, Uşaq cərrahiyyəsi, Pediatriya şöbələrinin ora köçürülməsi planı barədə danışıb.

Dəyirmi masada çıxış edən Birmingem Qadın və uşaq hospitalının mama-ginekoloqu, PhD, Fidan İsrafil-Bəyli "Vaginal prolaps-diaqnostika, menecment və cərrahiyyə" mövzusunda estetik ginekoloji kosmetoloji prosedurlar barədə danışıb. Fidan həkimin toxunduğu ikinci məsələ bütün dünyada aktual olan və böyük problemlər yaradan vaxtından əvvəl doğuşlar olub. "Mamalıqda müasir trendlər" mövzusunda danışan həkim qeyd edib ki, vaxtından əvvəl doğulan uşaqlarda problemlər daha çox olur. Bu da valideynlər üçün həm emosional, həm də maddi cəhətdən problemlər yaradır. Böyük Britaniyada xüsusi proqramlar vardır ki, vaxtından əvvəl doğuşun baş verməməsi, hansı tədbirlərin görülməsi barədə bu sənədlərdən yararlanmaq faydalı olar.

Qeyd edək ki, hazırda mama-ginekoloq, PhD, Fidan İsrafil-Bəyli Birmingem Ana və uşaq xəstəxanasında çalışır. Bu tibb müəssisəsi İngiltərədə çox böyük xəstəxanadır. Hər il burada 9 mindən artıq doğuş həyata keçirilir. Dəyirmi masa panel müzakirələr və sual-cavab sessiyaları vasitəsilə interaktiv şəkildə davam edib.

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

# “Google” və “Microsoft”un sərf etdiyi elektrik enerjisi bir neçə ölkələrin istehlakını ötür

“Google”, “Apple” və “Microsoft” kimi şirkətlər də daxil olmaqla, 10 ən dəyərli texnologiya şirkətləri bazar dəyərlərilə 2023-cü ildə ÜDM-i 17,6 trilyon dollar olan Çini geridə qoyublar.

“Bloomberg” xəbər verir ki, bununla yanaşı, nəhəng texnologiya şirkətləri olan “Google” və “Microsoft” Nigeriya, İordaniya, İslandiya, Şimali Koreya və Qana kimi ölkələrdən daha çox elektrik enerjisi istehlak edirlər.

Belə ki, “Google” və “Microsoft” ayrı-ayrılıqda ildə 24 teravatt saat elektrik enerjisi istehlak edirlər ki, bu da 11 milyon əhalisi olan İordaniya (20 teravatt saat), 400 min əhalisi olan İslandiya (19 teravatt



saat), 34 milyon əhalisi olan Qana (19 teravatt saat) və 26 milyon əhalisi olan Şimali Koreya (18 teravatt saat) kimi ölkələrin istehlak etdiyi elektrik enerjisindən daha çoxu deməkdir.

İki texnologiya şirkətinin ümumi istehlakı 48 teravatt saata uyğun gəlir və bunu deməyə əsas verir ki, onlar əhalisi 223 milyon olan Nigeriyadan (31 teravatt saat) daha çox elektrik enerjisi istehlak edirlər. Siyahıdakı digər texnologiya şirkətləri - “Meta” 12 teravatt saat, “Apple” 2 teravatt saat, “Nvidia” 0,5 teravatt saat elektrik enerjisi istehlak edirlər.

“Google” tərəfindən dərc edilən 2024-cü il hesabatına görə, məlumat mərkəzlərinin elektrik enerjisindən istifadəsi 2023-cü ildə 17 faiz artıb. Şirkətin məlumat mərkəzi qlobal miqyasda məlumat mərkəzləri tərəfindən istifadə edilən elektrik istehlakının 10 faizini təşkil edir.

“Microsoft” isə son 4 ildə süni intellekt sahəsindəki inkişaflarla böyük sıçrayış edib. 2020-ci ildə 11 teravatt saat elektrik enerjisi istehlak edən şirkət 4 il ərzində elektrik istehlakını iki dəfədən çox artıraraq 24 teravatt saata çatıb.

# Mərkəzi Gömrük Hospitalında 6 aylıq körpə üzərində qaraciyər transplantasiyası əməliyyatı uğurla icra olunub

Mərkəzi Gömrük Hospitalının Cərrahiyyə və orqan transplantasiyası şöbəsinin rəisi, transplantoloq, səhiyyə əlaçısı Mircəlal Kazımi və onun komandası tərəfindən 6 aylıq 7 kq-lıq körpə üzərində qaraciyər transplantasiyası əməliyyatı icra olunub. Körpə Mərkəzi Gömrük Hospitalına ümumi vəziyyətinin ağırlaşması və sarılıq əlamətləri ilə daxil olmuş və dərhal müayinələr aparılmışdır. Mərkəzi Gömrük Hospitalının Cərrahiyyə və orqan transplantasiyası şöbəsinin rəisi, transplantoloq Mircəlal Kazımi və Pediatriya şöbəsinin rəisi, uzman pediatr Telman Aytayev tərəfindən aparılan müayinələr nəticəsində xəstəyə biliar atreziya – anadangəlmə öd yollarının yoxluğu diaqnozu qoyulub. Bu nəticə xəstədə qaraciyər transplantasiyası əməliyyatı zərurətini yaradıb. Körpə İcbari Tibbi Sığorta üzrə xidmətlər zərfi çərçivəsində Mərkəzi Gömrük Hospitalında qaraciyər transplantasiyası əməliyyatı olunaraq, tam sağlamlığına qovuşub.



Mərkəzi Gömrük Hospitalının Cərrahiyyə və orqan transplantasiyası şöbəsinin rəisi, transplantoloq, səhiyyə əlaçısı Mircəlal Kazımi əməliyyat barədə məlumat verərkən bildirib: “Uşaqlarda biliar atreziya son vaxtlar tez-tez rast gəlinən bir xəstəlikdir. Vaxtında cərrahi müdaxilə olunarsa, xəstəni xilas etmək mümkün olur. Ümumiyyətlə, qaraciyər transplantasiyası, orqan köçürülməsi əməliyyatları, xüsusilə də qaraciyər transplantasiyası cərrahiyyənin və təbabətin ən mürəkkəb əməliyyatlarıdır. Bunların içərisində əsas mürəkkəblik təşkil edən xəstə qrup isə pediatrik, yəni uşaqlar üzərində aparılan əməliyyatlardır.

Buna misal olaraq əməliyyat etdiyimiz 6 aylıq 7 kq olan uşaqdır ki, bunun mürəkkəbliyi həm əməliyyatın cərrahi texniki icrası, həm də əməliyyatdan əvvəlki və sonrakı dövrdə xəstənin pediatr tərəfindən müayinəsi ilə bağlıdır. Ən əsas məqamlardan biri isə əməliyyatın anestezioloji və reanimasion xidmətidir. Çünki uşaq körpədir və bu, xüsusi iş təcrübəsi olan mərkəzlərdə aparılması zəruri olan əməliyyatdır. Ona görə də bizim tərəfimizdən artıq 1500-dən çox insan üzərində əməliyyatlar uğurla həyata keçirilmişdir ki, bunların bir qismi uşaqlar olmuşdur. Artıq xəstəmiz anasının tərəddüd etmədən verdiyi qaraciyər payı ilə dünyaya təkrar qayıtmışdır. Hazırda balaca Ömür sağlamlığına qovuşub və evə buraxılıb”.

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

# “Bakcell”in dəstəyi ilə şəhid övladları üçün yay düşərgəsi təşkil olunub




"Bakcell"in baş sponsorluğu və “YAŞAT” Fondunun təşkilatçılığı ilə şəhid övladları üçün "Ənənə" yay düşərgəsi təşkil olunub. Göygöl rayonunun Milli Yaylaq Festivalı ərazisində baş tutan tədbirdə 50-dək şəhid övladı iştirak edib.

Hərbi vətənpərvərlik və milli ənənələr mövzusuna həsr olunan düşərgə beş gün (13-18 avqust) davam edib. Tədbirdə gənclərin iştirakı ilə qədim milli oyun növləri üzrə yarışlar, müxtəlif təlimlər və interaktiv oyunlar keçirilib. "Müasir bacarıqlar və innovasiya" adlı təlim düşərgə iştirakçıların xüsusi marağına səbəb olub. Təlimdə “Bakcell”in əməkdaşı Rüfət Quliyev gələcəyin peşələri, ən çox tələb olunan bacarıqlar və bu bacarıqların əldə edilməsində texnologiya və innovasiyanın rolundan danışıb. Bundan əlavə, “Bakcell”in innovativ xidmətləri, “high-tech” və “AI” dəstəkli məhsulları barədə məlumat verilib.

Qeyd edək ki, şəhid və qazilərin ailə üzvlərinə qayğı və diqqətin göstərilməsi “Bakcell” şirkətinin korporativ sosial məsuliyyət (KSM) proqramının əsas istiqamətlərindən biridir. Şirkət bu sahədə təşəbbüsləri dəstəkləməyi və daha da genişləndirməyi planlaşdırır.

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə KOBİA-nın baş auditoru Asif Həsənova atası
**ABUZƏR HƏSƏNOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Elşən Hacızadə KOBİA-nın baş auditoru Asif Həsənova atası
**ABUZƏR HƏSƏNOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Arif Hüseynov KOBİA-nın baş auditoru Asif Həsənova atası
**ABUZƏR HƏSƏNOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Vüqar Vəliyev KOBİA-nın baş auditoru Asif Həsənova atası
**ABUZƏR HƏSƏNOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Bəyalı Ataşov, Zahid Məmmədov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev**

**www.iqtisadiyyat.com**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. “İQTİSADİYYAT” qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, “Azərmedia” MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**